**P.F.ƏLİYEVA**
*e-mail: peri_aliyeva_2018@mail.ru*
**:https://orcid.org/0009-0004-5974-241X**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.274**

# MƏSULİYYƏTLİ MƏKTƏBLİ DAVRANIŞININ MAHİYYƏTİ HAQQINDA

***Xülasə.*** *Müəyyənləşdirilir ki, insan davranışı bacarıqlarının formalaşması bəşəriyyət tərəfindən hazırlanmış norma və qaydaların mənimsənilməsi ilə baş verir. Eyni zamanda ilk vaxtlar, böyüklər uşağın davranışını tənzimləyənlərdir. Tədricən, cəmiyyətdə davranış norma və qaydalarının mənimsənilməsi, müəyyən davranışın praktiki həyata keçirilməsi üçün yaradılan şəraitdə uşaq öz davranışını müstəqil şəkildə tənzimləmək qabiliyyətinə yiyələnir.*
*Məqalədə göstərilir ki, pedaqoji nöqteyi-nəzərdən davranış – cəmiyyət tərəfindən hazırlanmış norma və qaydalarla tənzimlənən hərəkətlərin məcmusudur. Bundan əlavə, öyrənilmiş norma və qaydalara uyğun hərəkət etmək vərdişləri düzgün davranış formalarının tərbiyəsi prosesinin mühüm tərkib hissəsidir. Məqalə "ibtidai məktəb şagirdlərinin məsuliyyətli davranışı" anlayışının məzmununun təhlili və aydınlaşdırılmasına, ibtidai ümumi təhsil səviyyəsində təlim prosesinin informasiyalaşdırılması şəraitində məsuliyyətli davranış tərbiyəsinin xüsusiyyətlərinin müəyyən edilməsinə və prioritetlərin aşkarlamasına həsr olunub.*

***Açar sözlər:*** *davranış, öz davranışına nəzarət, davranış normaları, özünənəzarət, özünütənzimləmə*

Müasir pedaqogikanın əsas tələblərindən biri də odur ki, tərbiyə təhsil prosesinə təbii şəkildə inteqrasiya etməli, öyrəncilərin bütün fəaliyyət növlərinə təsir göstərməlidir. Bu baxımdan, ilk öncə "müasir dövrdə tərbiyə" anlayışının mahiyyətini müxtəlif mövqelərdən, yəni fəlsəfi, psixoloji, sosial və pedaqoji mövqelərdən nəzərdən keçirək. Son dövrlərdə Rusiyada dərc olunmuş "Yeni fəlsəfi ensiklopediya"da göstərilir ki, tərbiyə – uşağın insani ünsiyyətin sosial-mədəni məkanında məqsədyönlü və istiqamətləndirilmiş böyüməsidir [6, s.440]. Həmin mənbədə tərbiyəyə həm də "hər yaşda olan bir fərdə və ya bir qrup insana şüurlu şəkildə planlaşdırılmış intellektual, estetik və əxlaqi təsir" vasitəsi kimi baxılır. Bu təriflərə əsaslanaraq belə bir nəticəyə gəlmək olur ki, tərbiyə fərdin estetik, əxlaqi və intellektual inkişafı məqsədilə yetişdirilməsi prosesinə şüurlu təsirdir. Bu o deməkdir ki, tərbiyə fərdin sosial inkişafı məqsədilə ona məqsədyönlü təsir etməkdir. Filosoflardan F.Bekon, C.Lokk və b. təhsilin xüsusiyyətlərini, məqsəd və vəzifələrini tədqiq etmişlər. Onların fikirləri ilə tanış olduqdan və yuxarıda verilən tərifləri təhlil etdikdən sonra belə bir nəticəyə gəlirik ki, fəlsəfi baxımdan tərbiyə sosial-mədəni məkanda bir fərd və ya bir qrup insanın dəyişilməsi və təsdiqlənməsi məqsədilə reallaşan məqsədyönlü təsirdir.

Psixologiya baxımından tərbiyə – fərdin cəmiyyətə adekvat inteqrasiyası məqsədilə ona sistemli və məqsədyönlü təsir göstərmədir. L.İ. Bojoviç [2] təsdiq edir ki, tərbiyə prosesində şəxsiyyətin formalaşması müəyyən olunmuş ideallar, dəyərlər, inanclar və s. əsasında baş verir. T.V.Xristidis, L.S.Vıqotski, A.N. Leontyev, S.L.Rubinşteyn və digər rus psixoloqları da bu mövqeyin tərəfdarları idilər. Bu belə bir nəticəyə gəlməyə imkan verir ki, tərbiyə müəyyən bir sosiumda qəbul edilmiş dəyərlərin, idealların mənimsənilməsi yolu ilə şəxsiyyətin məqsədyönlü formalaşması prosesidir. Eyni zamanda "Ən yeni psixoloji-pedaqoji lüğət"də tərbiyə termininin üç tərifi var: 1) sosial, geniş mənada – cəmiyyətin bütün sosial struktur tərəfindən həyata keçirilən gənc nəsli həyata hazırlamaq funksiyası: ictimai institutlar, təşkilatlar, kilsə, kütləvi informasiya vasitələri və mədəniyyət, ailə və məktəb; 2) daha dar, pedaqoji mənada –

təhsil müəssisələrində müəllimlər tərəfindən həyata keçirilən və şəxsiyyətin inkişafına yönəlmiş xüsusi təşkil edilmiş və idarə olunan insan formalaşması prosesi;

3) "ictimai həyata və məhsuldar əməyə hazırlamaq üçün yeni nəsillərə ictimai – tarixi təcrübənin ötürülməsi" [7, s.84]. Yəni tərbiyə fərdin cəmiyyətdə həyata hazırlanmasına yönəlib. Beləliklə, "tərbiyə" anlayışını psixologiya nöqteyi-nəzərindən təhlil edərək belə nəticəyə gəlirik ki, bu termin müəyyən bir cəmiyyətdə tarixi təcrübənin gənc nəslə ötürülməsinin sistemli, xüsusi təşkil olunmuş prosesi kimi başa düşülür.

Sosial mənada tərbiyə termini "toplanmış təcrübənin yaşlı nəsillərdən gənclərə ötürülməsi" kimi qəbul edilir. Bu kontekstdə təcrübə dedikdə əxlaqi, etik, hüquqi normalar, o cümlədən insanlara məlum olan bilik və bacarıqlar, yəni "bəşəriyyətin mənəvi irsi" başa düşülür.

Milli pedaqoji nəzəriyyədə tərbiyəyə "həyata keçirildiyi məqsədlərin, qrupların və təşkilatların xüsusiyyətlərinə uyğun olaraq insanın nisbətən şüurlu şəkildə yetişdirilməsi" kimi tərif verilir. Geniş pedaqoji mənada tərbiyə "şagirddə verilmiş keyfiyyətləri formalaşdırmaq üçün ona xüsusi təşkil edilmiş, məqsədyönlü və idarə olunan, ailədə və təhsil müəssisələrində həyata keçirilən təsirdir". Dar pedaqoji mənada tərbiyə "konkret təhsil məsələlərin həllinə yönəlmiş tərbiyə işinin prosesi və nəticəsidir" [5, s.116]. Yəni ailə və təhsil təşkilatları qarşısında uşaqlarda müəyyən şəxsiyyət xüsusiyyətlərinin formalaşmasına yönəlmiş tapşırıq verilir və onun həlli şagirdlərə nəzarətli təsir yolu ilə həyata keçirilir. Bütövlükdə, pedaqogika nöqteyi-nəzərindən tərbiyə – təhsil fəaliyyətini həyata keçirən təşkilatlarda həyata keçirilən, xüsusi təşkil olunmuş və normalar, cəmiyyətdə qəbul edilmiş qaydalar və dəyərlər əsasında şagirdlərin şəxsiyyətinin formalaşmasına şərait yaratmağa yönəlmiş prosesdir.

Beləliklə, "tərbiyə" termininin mahiyyətini fəlsəfi, psixoloji, sosial və pedaqoji baxımdan nəzərdən keçirərək belə bir nəticəyə gəlmək olur ki, tərbiyə – şagirdlərin uğurlu sosiallaşması məqsədilə cəmiyyətdə qəbul edilmiş mənəvi-əxlaqi, mədəni dəyərlərin, norma və qaydaların mənimsənilməsinə şərait yaratmaqla tarixi təcrübənin gənc nəsillərə ötürülməsinin xüsusi təşkil olunmuş prosesidir.

Qeyd etmək lazımdır ki, təhsilin məqsədləri çevikdir və cəmiyyətin inkişafının təsiri altında dəyişikliklərə uğrayır. Müasir cəmiyyət mənəvi, ekoloji, iqtisadi və hüquqi tərbiyəyə təkan verən yeni əlavə problem-məsələlər qarşıya qoymuşdur. Bu baxımdan zəruri olan tərbiyə məsələrindəki dəyişikliklər Azərbaycan dövlətinin normativ hüquqi sənədlərin tələblərində, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda və Dövlət Təhsil Standartında öz əksini tapmışdır. Təhsil standartı universal təhsil fəaliyyətinə, həyat üçün zəruri olan səlahiyyətlərə, o cümlədən cəmiyyətin informasiyalaşdırılması şəraitində yeni nəslin yetişdirilməsinə yönəldilmişdir. Bundan əlavə, standart həm də, demokratik və hüquqi dövlət ideallarının ibtidai məktəb şagirdləri tərəfindən milli və ümumbəşəri dəyərlərə uyğun mənimsənilməsinə yönəlib. Dünya təcrübəsində bu dəyərlər sistemə salınmışdır. Məsələn, bu dəyərlərin sistemi, rus məktəblilərinin tərbiyəsinin məqsəd və vəzifələri, müasir təhsil idealının təbiətini, müəllifləri A.Y. Danilyuk, A.M.Kondakov, V.A.Tişkov olan "Rusiya vətəndaşının mənəvi-əxlaqi inkişafı və tərbiyəsi konsepsiyası" ilə müəyyən edilir [3]. Qeyd edək ki, konsepsiyada əsas ümumtəhsil proqramının mənimsənilməsinin şəxsi nəticələri personal qiymətləndirilmir, yalnız monitorinq ilə aparılır. Yəni "müəyyən şəraitdə şagirdin əməli davranışını, tələb olunan hərəkətləri yerinə yetirməsini" tədqiq etməklə ibtidai məktəb şagirdlərinin tədris prosesinin səmərəliliyini və tərbiyə səviyyəsini müəyyən etmək olar.

İndi də "davranış" anlayışını fəlsəfi, psixoloji və pedaqoji baxımdan nəzərdən keçirək. Fəlsəfə nöqteyi-nəzərindən davranış "mürəkkəb obyekt tərəfindən həyata keçirilən daxili qarşılıqlı əlaqədə olan hərəkətlər sistemidir; bu sistem müəyyən məntiqə tabedir və bu obyektə xas olan və onun ətraf mühitlə qarşılıqlı əlaqəsini tələb edən konkret funksiyanın həyata keçirilməsinə yönəlir" [6, s.253]. İnsana münasibətdə davranış "əxlaqi münasibətlərin həyata keçirilməsi olan insan hərəkətləri sistemi" [6, s.440] kimi qəbul edilir. Beləliklə, əxlaqi orientirlər, yuxarıda qeyd edildiyi kimi, tərbiyə vasitəsilə ötürülür və bu tərifdən çıxış edərək, onların

davranış vasitəsilə həyata keçirildiyi qənaətinə gəlirik. Bu həm də o deməkdir ki, insanın hər bir əməli kənardan qiymətləndirilir. Prof. R.İ.Əliyevin fikrincə, davranış həm insanın özünə, həm də başqalarına, ümumiyyətlə, fayda və ya zərər baxımından ictimai qiymətləndirmə obyektidir. Belə ki, fəlsəfi əsərlərdə davranış aktının dəyəri onun hər hansı qayda, norma və ya idealla əlaqəsi nəticəsində müəyyən edilir, fərd və başqaları tərəfindən qiymətləndirilən davranışın özü isə insanın mənəvi, hüquqi və digər münasibətlərini nümayiş etdirən hərəkətlər sistemi kimi qəbul edilir. Qaydalar, normalar və ideallar da öz növbəsində tərbiyə prosesində şəxsiyyət tərəfindən mənimsənilir [1, s.12].

Davranış məfhumuna psixologiya prizmasından təhlil verək. İ.M.Kondakov "Psixoloji lüğət"də davranışın aşağıdakı tərifini verir: "canlı orqanizmin fərdi ehtiyaclarını ödəmək üçün xarici aləm ilə təmasda olmağa xidmət edən məqsədyönlü fəaliyyətdir" [4, s.265]. Güman etmək lazımdır ki, insan davranışı ətraf mühit ilə və buna görə də digər insanlarla qarşılıqlı əlaqəyə yönəlmiş bir fəaliyyət növünü nəzərdə tutur. Psixoloqlar fərdi ehtiyacların ödənilməsini fizioloji, təhlükəsizlik ehtiyacı, sevgi və mənsub olma, hörmət, özünü həyatda təsdiqləmə kimi başa düşürlər.

"Ən yeni psixoloji-pedaqoji lüğət"də davranış "insan fəaliyyətinin zahiri təzahürü", habelə "etik hərəkətlər məcmusu" kimi qəbul edilir [6, s.585]. Beləliklə, davranış etik hərəkətlərin məcmusudur, yəni davranış vahidi – hərəkətdir. R.İ.Əliyev isə belə hesab edir ki, davranış "həqiqətən əxlaqi" olmalıdır. Bu, yalnız başqasını incitdikdə cavab hərəkətləri ala biləcəyindən qorxduğu halda deyil, özünün belə incidildiyi halda necə olacağını başa düşdüyü şəkildə olmalıdır [1, s.30]. Beləliklə, davranış əxlaq normalarına əsaslanan və fərdi ehtiyacları ödəmək üçün ətraf aləmlə, insanlarla qarşılıqlı əlaqəyə yönəlmiş hərəkətlər məcmusu kimi qəbul edilə bilər. Digər insanların hisslərini və istəklərini nəzərə almaq ehtiyacı bir insanın onlar üçün əhəmiyyətli olan dəyərləri dərk etməsi və qəbul etməsi, cəmiyyət üçün tanış və başa düşülən qaydalara və normalara riayət etməsi deməkdir.

Klassik psixoloqların əsərlərində məqbul hesab edilən sosial davranışların formalaşmasının xüsusiyyətlərinə diqqət yetirilir. Uşağın şəxsiyyətinin formalaşması üçün müəyyən bir davranış hərəkətləri etmək vərdişinin inkişaf etdirilməsi zərurəti B.Q.Ananyev, S.L.Rubinşteyn və b. tərəfindən xüsusi vurğulanmışdır. L.İ.Bojoviç isə, hətta pedaqoji cəhətdən laqeyd qalan uşaqlarda ümumi qəbul edilmiş normalara zidd olmayan hərəkətlər vərdişinin formalaşmasının mümkün olduğunu iddia edirdi. O, uşaqlarda davamlı davranışın formalaşdırılması üçün aşağıdakı şərtləri və yolları təklif etmişdir: Birincisi, "məcburiyyət yolu ilə deyil, müsbət motivin fonunda müəyyən davranış formalarında" olan təlim tapşırıqları təşkil etmək lazımdır. İkincisi, təlim tapşırığını onun təkrarlanması və uğurla həyata keçirilməsi üçün tədbirlərin planlaşdırılması yolu ilə qəbul edilməsi, uşaqların fəallıq göstərmək istəklərinin təmin edilməsi vacibdir. Üçüncüsü, davranışın mürəkkəb formalarını mənimsəmək üçün o, "nisbətən müstəqil kiçik davranış hərəkətlərinə bölünməli, hər biri ayrıca izlənilməli və qiymətləndirilməlidir" [2, s.208-211]. Beləliklə, psixologiyada davranış insan fəaliyyətinin zahiri təzahürü, ətraf mühitlə təmasda olmağa xidmət edən və cəmiyyətdə qəbul edilmiş məlum normalara əsaslanan hərəkətlərin məcmusu kimi müəyyən edilir. Onun formalaşması üçün psixoloji cəhətdən əsaslandırılmış yollar və şərtlər təklif olunur.

Davranış anlayışını pedaqoji prizmadan nəzərdən keçirək. Bir qrup Avropa alimləri davranışı "hərəkətlər toplusu" kimi başa düşürlər, burada insanın xarici fəaliyyəti və davranış hərəkətlərinin daxili təkanverici şərtləri, yəni onların motivasiyası və təcrübəsi xüsusi qeyd olunur.

Bu fikirlərdən belə nəticə çıxır ki, psixologiyada olduğu kimi, pedaqogikada da davranış müəyyən hərəkətlər kompleksi kimi qəbul edilir. "Məktəb pedaqogikası"nda davranış termininə bu cür aydınlıq gətirilir ki, "insanın müəyyən bir məqsədə çatmaq, ətraf mühitlə qarşılıqlı əlaqəsi prosesində müəyyən bir funksiyanı yerinə yetirmək üçün həyata keçirdiyi qarşılıqlı əlaqəli refleks və şüurlu hərəkətlər (fiziki və zehni) sistemidir" [5, s.114]. Yəni davranış konkret məqsədə çatmaq üçün həyata keçirilən hərəkətlərin məcmusu kimi qəbul edilməlidir.

“Pedaqoji ensiklopedik lüğət”də davranış “canlıların, o cümlədən insanların həyatının xarici təzahürlərinin, real hərəkətlərinin məcmusu” kimi qəbul edilir. Yenə həmin mənbədə göstərilir ki, insanın davranış bacarıqlarının formalaşması bəşəriyyət tərəfindən hazırlanmış norma və qaydaların mənimsənilməsi ilə həyata keçir. Eyni zamanda, uşaqların ilk vaxtlarında, böyüklər onların davranışını tənzimləyənlərdir. Tədricən, cəmiyyətdə davranış norma və qaydalarının mənimsənilməsi, müəyyən davranışın praktiki həyata keçirilməsi üçün yaradılan şəraitdə uşaq öz davranışını müstəqil şəkildə tənzimləmək qabiliyyətinə yiyələnir.

V.A.Suxomlinski bir qədər fərqli termindən – “yüksək əxlaqi davranış” məfhumundan (anlayışından) istifadə etmişdir. Bu məfhum altında o, çoxlu kiçik fərqli davranış əməllərinin toplusunu nəzərdə tutur. Əməllər isə sözlərdən, hərəkətlərdən, hərəkətsizliklərdən, başqalarının hərəkətlərinə və sözlərinə münasibətdən və s. ibarət ola bilər. O, iddia edirdi ki, hər bir uşaq hansı hərəkətlərin icra edilə biləcəyini, nəyin isə icrasının mümkün olmadığını qəti şəkildə bilməli və buna əmin olmalıdır. Onun fikrincə, uşaq cəmiyyətdə qəbul edilmiş norma və qaydaları mənimsəyərək, tədricən öz davranışını tənzimləməyi öyrənməlidir. Eyni zamanda K.D.Uşinski, uşaqlarda düzgün davranış formalarının tərbiyəsi zamanı mühüm rol oynayan və xarakterin tərkib hissəsi olan vərdişə böyük diqqət və əhəmiyyət verirdi. Məhz vərdiş, dahi pedaqoqun fikrincə, tərbiyəçiyə şagirdin xarakterində, onun sinir sistemində müəyyən dəyişiklik etmək imkanı açır. Və bu zaman əsas məsələ uşaqlara ilk iki-üç asan davranış hərəkətlərinə tabe olmağı öyrətmək və tədricən onları mürəkkəbləşdirməkdir [8, s.129-130]. Beləliklə, pedaqoji nöqteyi-nəzərdən davranış – cəmiyyət tərəfindən hazırlanmış norma və qaydalarla tənzimlənən hərəkətlərin məcmusudur. Bundan əlavə, öyrənilmiş norma və qaydalara uyğun hərəkət etmək vərdişləri düzgün davranış formalarının tərbiyəsi prosesinin mühüm tərkib hissəsidir.

Beləliklə, “davranış” məfhumunu müxtəlif mövqelərdən öyrənərək belə nəticəyə gəlirik ki, davranış insanın ətraf mühit ilə qarşılıqlı əlaqəsi nəticəsində həyata keçirdiyi hərəkətlərin məcmusudur. Məktəblilərin davranışı, böyüklərin tərbiyəvi təsiri altında mənimsənilən dəyər münasibətləri ilə tənzimlənən cəmiyyət tərəfindən qəbul edilmiş norma və qaydaların mənimsənilməsinə əsaslanarsa, o, sosial cəhətdən daha məqbul olacaqdır. Bundan əlavə, insanın davranışının necə formalaşdığını başa düşməyin pedaqoji tərəfi ondan ibarətdir ki, insanın əməl etdiyi norma və qaydalar onun düşünülmüş baxışlarıdır, onun adi davranış formalarıdır, öz əqidəsidir: hətta özü ilə təkbətək qaldıqda belə (N.M.Kazımov, Ş.T.Tağıyev, A.S.Makarenko, V.İ.Novikova, İ.F.Xarlamov). Nəzərə alsaq ki, uşağın davranış tənzimləyicisi kimi çıxış edən və müəyyən bir cəmiyyətdə mövcud olan normaları mənimsəməsi xüsusi təşkil edilmiş fəaliyyət nəticəsində, təhsil fəaliyyətini həyata keçirən təşkilatlar, sosial institutlar, ictimai qurumlar tərəfindən, o cümlədən ailədə xüsusi şəraitin yaradılması nəticəsində baş verir, bu halda insanın davranış tərbiyəsinin reallaşdığını söyləyə bilərik. Qeyd etmək lazımdır ki, norma kimi “müəyyən sosial qrupda müəyyən edilmiş qayda, müəyyən bir cəmiyyət daxilində insanların münasibətlərini tənzimləyən müəyyən davranış standartı” başa düşülür.

***İşin elmi nəticəsi.*** Təhsil problemlərinə həsr edilmiş fəlsəfi, psixoloji, sosioloji və pedaqoji ədəbiyyatın təhlili, ibtidai ümumi təhsilin müasirləşdirilməsi ilə bağlı pedaqoji təcrübənin və normativ sənədlərin öyrənilməsi məsuliyyətli məktəbli davranışının mahiyyəti haqqında təsəvvürlərin formalaşdırılmasına geniş imkanlar açdı.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, tərbiyə problemlərinin həllində İKT vasitələrindən istifadə imkanlarının öyrənilməsi təhsil prosesinin informasiyalaşdırılması kontekstində kiçikyaşlı şagirdlərdə məsuliyyətli davranışın tərbiyəsinin xüsusiyyətlərini müəyyən etməyə imkan verdi.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Məqalə ibtidai siniflərdə təlimin daha səmərəli təşkili zamanı fənn müəllimləri, müvafiq dərslik və dərs vəsaitlərinin tərtibi zamanı müəlliflər faydalana bilər.

## Ədəbiyyat


1. Əliyev, R.İ. Şəxsiyyət psixologiyası / R.İ.Əliyev, – Bakı: Nurlan, – 2011. – 381s.
2. Божович, Л.И. Личность и её формирование в детском возрасте /Л.И. Божович. – СПб.: Питер, 2008. – 400 с.
3. Данилюк, А.Я. Концепция духовно-нравственного развития и воспитания личности гражданина России / А.Я. Данилюк и др. – М.: Просвещение, – 2013. –123 с.
4. Кондаков, И.М. Психология: иллюстрир. словарь / И.М. Кондаков. – СПб.: Прайм-ЕВРОЗНАК, – 2003. – 512 с.
5. Kazımov, N.M. Məktəb pedaqogikası. Dərslik / N.M.Kazımov, – Bakı: OKA Ofset, – 2016. – 436 s.
6. Новая философская энциклопедия. В 4 т. Т. 1 /Ин-т философии РАН, Нац. обществ.-науч. фонд; науч.-ред. совет: В.С. Степин (пред.) и др.– М.: Мысль, – 2010. – 744 с.
7. Новейший психолого-педагогический словарь /сост. Е.С. Рапацевич; под общ. ред. А.П. Астахова. – Минск: Современная школа, – 2020. – 928 с.
8. Ушинский, К.Д. Педагогическая антропология: Человек как предмет воспитания. Опыт педагогической антропологии: в 2 ч. /К.Д. Ушинский. – М.: Изд-во УРАО, – 2002. – 496 с.


**P.F.Aliyeva**

### On the Essence of Responsible School Behavior

***Summary***


It is determined that the formation of human behavior skills occurs through the assimilation of norms and rules developed by humanity. At the same time, at first, it is adults who regulate the child's behavior. Gradually, in the conditions created for the assimilation of norms and rules of behavior in society, the child acquires the ability to independently regulate his behavior.

The article shows that from a pedagogical point of view, behavior is a set of actions regulated by norms and rules developed by society. In addition, the habit of acting in accordance with the learned norms and rules is an important component of the process of education of correct forms of behavior. The article is devoted to the analysis and clarification of the content of the concept of "responsible behavior of primary school students", identifying the features of responsible behavior education in the context of informatization of the educational process at the level of primary general education and identifying priorities.


***Key words:*** *behavior, control over one's own behavior, norms of behavior, self-control, self-regulation*

**П.Ф.Алиева**

### О сущности ответственного школьного поведения

***Резюме***


В статье определено, что формирование навыков поведения человека происходит через усвоение норм и правил, выработанных человечеством. При этом на первых порах именно взрослые являются теми, кто регулирует поведение ребенка. Постепенно в условиях, созданных для усвоения норм и правил поведения в обществе, ребенок приобретает способность самостоятельно регулировать свое поведение.

Показано, что с педагогической точки зрения поведение представляет собой совокупность действий, регулируемые нормами и правилами, выработанными обществом. Кроме того, привычка действовать в соответствии с усвоенными нормами и правилами является важной составляющей процесса воспитания правильных форм поведения. Статья посвящена анализу и уточнению содержания понятия «ответственное поведение учащихся младших классов», выявлению особенностей воспитания ответственного поведения в условиях информатизации учебного процесса на уровне начального общего образования и выявлению приоритетов.


**Ключевые слова:** *поведение, контроль за собственным поведением, нормы поведения, самоконтроль, саморегуляция*

*Rəyçi: ped.f.d., dos. G.R.Məmmədova*
*Redaksiyaya daxil olub: 15.05.2025*